

# DÖVLƏT BAYRAĞI MEYDANI

Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

**Azərbaycan Respublikasının Konstitusiyası, maddə 23**

Dövlət Bayrağı Meydanı. Bakı, 2010

Az 2010
931

# DÖVLƏT BAYRAĞI MEYDANI

88006

ARXİV

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

X 620(2A).8 + T3(2A).92

# Azərbaycan Respublikasının Dövlət bayrağı

## ÜÇRƏNGLİ BAYRAĞINLA MƏSUD YAŞA!



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilib. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra üçrəngli bayraq qırmızı sovet bayrağı ilə əvəz olunub. Üçrəngli bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilib və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul olunub. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıb. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verib.

**Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.**






Bayrağın ümumi ölçülərini göstərən qrafik təsviri

**Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir; düzbucaqlının diaqonalı bayrağın eninin 1/2-nə bərabərdir.**

**Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir; böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin 1/4-nə bərabərdir. Kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1/60-nə bərabər olan məsafədə yerləşir.**

**Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəsinin diametri bayrağın eninin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir.**

**Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə**
*(Azərbaycan Respublikasının 1991-ci il 5 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir.*
*Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə əlavə və dəyişikliklər edilmişdir.)*

# Azərbaycan Respublikasının Dövlət gerbi



Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan edib və müsabiqədən keçəcək gerb nümunəsinin həmin il mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarıb. Lakin 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu nəticəsində gerb qəbul edilməyib. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Dövlət gerbi ilə bağlı məsələni müzakirə edərək, Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırıb.

Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunub. 1991-1992-ci illər ərzində müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim edilib, müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanan layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənib. Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanan Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq edib.



Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri var.

# Azərbaycan Respublikasının Dövlət himni

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul edib və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edilib. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan verməyib. 1992-ci il mayın 27-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul edib. Qanuna əsasən, 1919-cu ildə dahi bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edilib.

*Musiqi: Üzeyir Hacıbəyli*
*Sözlər: Əhməd Cavad*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!







# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN DÖVLƏT RƏMZLƏRİ HAQQINDA

**Ulu öndər Heydər Əliyevin 1997-ci il 1 sentyabr tarixli çıxışından:**

*"Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir...*

*Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun...*

*Biz öz müstəqil dövlətimizdəyik, ölkəmizdəyik. Mən çox ölkələrə gedirəm. Hava limanında Azərbaycan bayraqlarını görəndə həddindən artıq sevinirəm. Yaşadığım iqamətgahın, əyləşdiyim avtomobilin üzərində Azərbaycan bayrağını, hansısa bir yerə danışığa gedəndə Azərbaycan bayrağını görürəm. Bu, bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa və dövlətə olan məhəbbətə bərabər olsun...*

*Azərbaycanın gerbini təbliğ etmək lazımdır. Azərbaycanın gerbi bayraq ilə bərabər bizim dövlət müstəqilliyimizi təmsil edən atributdur...*

*Azərbaycanın gözəl himni var... Bu himn hələ 1918-ci ildə yazılıb. Bunun müəllifi bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyovdur. Himnimizin sözlərini böyük şairimiz Əhməd Cavad yazıb. Onun musiqisi də çox gözəldir, sözləri də çox mənalıdır, gözəldir... Bizim himnin müəllifləri bu himni nə qədər böyük məharətlə yaradıblar. Hər dəfə xarici ölkələrdə bu himni dinləyərkən mən yenidən iftixar hissi duyuram. Ancaq himni dinləmək yox, onu oxumaq lazımdır."*

*Azərbaycan Respublikasının Dövlət Bayrağı*
*O, yeganə varlıqdır ki, qarşısında Azərbaycan Respublikasının Prezidenti diz çökür. Onun dayandığı yer Azərbaycan dövlətinin olduğu məkandır. Harada bayrağımız varsa, orada Azərbaycan xalqı, dövləti və prezidenti var.*




Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin andiçmə mərasimi.
Bakı, 10 oktyabr 1993-cü il






Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin andiçmə mərasimi.
Bakı, 18 oktyabr 1998-ci il



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi.**
**Bakı, 31 oktyabr 2003-cü il**





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi.**
**Bakı, 24 oktyabr 2008-ci il**

## Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Dövlət bayrağı Dövlət gerbi və Dövlət himni kimi Azərbaycan Respublikasının müstəqilliyini təcəssüm etdirən rəsmi dövlət rəmzidir. Dövlət atributu olaraq Azərbaycan bayrağına ehtiram göstərilməsi ölkə vətəndaşlarının müqəddəs borcudur. Azərbaycan əsgəri Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən Dövlət bayrağına and içir. Dövlət bayrağının Azərbaycan Respublikasının dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin üzərində dalğalanması, ən mötəbər məclislərdə və mərasimlərdə, rəsmi tədbirlərdə və yarışlarda qaldırılması hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

Azərbaycanın Dövlət bayrağı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il 9 noyabr tarixli qərarı ilə milli bayraq kimi qəbul edilmiş və 1920-ci ilin aprelinə qədər dövlət rəmzi kimi istifadə olunmuşdur. Tariximizin sovet dövründə o, Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı ilə əvəz edilmişdir.

Dağlıq Qarabağ ətrafında cərəyan edən ictimai-siyasi proseslər zamanı ziyalıların təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qeyri-rəsmi olaraq 1988-ci il noyabrın 17-də Bakıda indiki Azadlıq meydanında qaldırılmışdır. Rəsmi olaraq bu bayraq Azərbaycan ərazisində Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı əsasında Naxçıvan Ali Sovetinin binası üzərində ucaldılmışdır. Həmin qərar səkkiz gün sonra Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilsə də, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən ses-



siyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmuşdur. 1991-ci il fevralın 5-də Azərbaycan ictimaiyyətinin tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti Dövlət bayrağı haqqında Qanun qəbul edərək üçrəngli bayrağa Azərbaycan Respublikasının dövlət bayrağı statusunu vermişdir.

1991-ci il oktyabrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını qəbul etmişdir.

Azərbaycan Respublikasının Dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə alaraq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanı yaradılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 noyabr 2007-ci il

88006.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

## Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etmişdir. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilmişdir.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər



mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamı Dövlət bayrağının dövlət rəmzləri sırasında xüsusi yerini müəyyən edir.

Azərbaycan Respublikasının Dövlət bayrağının ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 noyabr 2009-cu il

## Azərbaycan Respublikası




# AZƏRBAYCAN - DOĞMA VƏTƏN!

Azərbaycan - bizim vətənimiz! Hər qarış torpağı babalarımızın yaratdığı zəfər tarixini canlandıran, nəsillərin güvənc yeri, əməlləri nur saçan oğullarının yolunda canını belə əsirgəmədiyi məmləkətimiz!

Azərbaycan - dosta qoynunu açan, doğulduğu torpağına ana deyən, öz səxavəti, mərhəməti, iti ağlı və şücaəti ilə dünyanı heyran qoyan, sərvətinə göz qoymuş düşmənlərə amansız olan igidlərin vətəni - Odlar Yurdu!

Azərbaycan - Şərqlə Qərbi qovuşduran qızıl körpü, iki sivilizasiyanın arasında özünün möhtəşəm mədəniyyətini yaradan, adını söz ustadlarının əsərlərində, əsrarəngiz memarlıq incilərində, bütün insanlığı heyran edən muğam fəlsəfəsində əbədi həkk edən mütəfəkkirlər, dahilər torpağı!

Azərbaycan - tarixin bütün sınaqlarından üzüağ çıxaraq, qəhrəman övladlarının istiqlal savaşının təntənəsi olan üçrəngli bayrağı ilə Qafqazın lider ölkəsinə çevrilən, bütün bəşəriyyətə məhəbbət, humanizm ideyaları ilə yaşayan, günbəgün dəyişən, inkişaf edən ölkəmiz! Hamımızın vahid, bölünməz vətəni, ümid yerimiz, bütün soydaşlarımızı üçrəngli bayraq altında birləşdirən vahid məkan - Azərbaycan, Azərbaycan, Azərbaycan!

# BAYRAĞIMIZ - QÜRUR MƏNBƏYİMİZ

***Azərbaycan bayrağı... Xalqımızın, bütün dünya azərbaycanlılarının azadlığının, şərəf və ləyaqətinin, milli birliyinin simvolu... Azərbaycan dövlətinin hörmət və ehtiramının tək ünvanı. Hər zaman uca tutulacaq və heç vaxt enməyəcək milli dəyərimiz.***

***O, bizim qanımız, o, bizim canımız, o, bizim qürurumuz... O, keçmişimiz, o, bu günümüz, o, gələcəyimiz...***

Bəşər sivilizasiyasının yarandığı məkanlardan biri kimi Azərbaycan hər zaman qədim tarixi, zəngin mədəniyyəti, insan qaynaqları ilə öyünüb. Ulularımız bizə elə bir tarixi miras qoyub ki, bu gün də həmin irs müasir Azərbaycan cəmiyyətinin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Təbii ki, hər bir millətin, xalqın tarixində onun milli atributları xüsusi əhəmiyyətə malikdir. Odur ki, dövlət rəmzləri mövcudluq nişanəsi kimi dünyaya hər bir xalqın var olduğunu bəyan edir. Azərbaycan Respublikasının dövlət atributları da dövlətçiliyimizin keçdiyi tarixi yolu yetərincə əks etdirir, müasir dünyaya xalqımızın qüdrətini göstərir.

Azərbaycan ərazisində dövlət atributlarının mövcudluq tarixi ölkəmizdə yaranan qədim dövlətlərin zamanına gedib çıxır. Orta əsrlərdə isə dövlət rəmzləri, xüsusilə də bayraqlar Azərbaycan dövlətlərinin simvolu kimi qəbul edilir. "Kitabi Dədə Qorqud" dastanından, Şirvanşahlar dövlətindən xanlıqlara qədər keçdiyimiz tarixi mərhələdə bayraq və digər dövlət rəmzləri, həmçinin simvollar milli sərvətimiz olan abidələrdə - Möminə xatun məqbərəsində, Qız qalasında,



Şirvanşahlar sarayında, İçərişəhərdə və yüzlərlə tarixi-mədəni kitabələrdə əbədiləşib. Bu gün muzeylərimizin ən qiymətli eksponatları sırasında olan qədim dövlət rəmzləri və bayraqlar bizə Azərbaycan ərazisində yaranıb formalaşan dövlətlərin tarixini öyrənməyə və araşdırmağa geniş imkanlar açır. "Bayraq" sözü Azərbaycanda dövlətçilik tarixinə müqəddəs məfhum kimi daxil olub və o hər zaman uca tutulub. Müasir anlamda "bayraq" sözü dövlətimizin, millətimizin müstəqillik, suverenlik, milli azadlıq və istiqlal rəmzini, simvolunu təcəssüm etdirir.

Zəngin tarixi irsdən yaranan və uğrunda igid oğullarımızın canından keçdiyi üçrəngli bayrağımız tarixi yolumuzun, milli ideologiyamızın əsas prinsiplərini tam mənası ilə əks etdirir. Odur ki, 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradılanda dövlət atributları, həmçinin üçrəngli bayraq qəbul edilərkən bu prinsiplər xüsusilə nəzərə alındı. Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda çox çətin savaşlardan keçən milli hökumət 1918-ci il noyabrın 9-da Azərbaycanın üçrəngli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul etdi. 1918-ci il dekabrın 7-də isə bayrağımız Şərqdə və türk-islam dünyasında ilk demokratik, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışı zamanı Parlament binası (indiki Əlyazmalar İnstitutu) üzərində dalğalandı. Lakin bayrağımızın ömrü qısa oldu. 1920-ci il aprelin 28-də bolşeviklərin Azərbaycanı işğal etməsi ilə Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı və müqəddəs idealların daşıyıcısı olan üçrəngli bayrağımız 1920-ci il mayın 3-də Azərbaycan Parlamentinin binası üzərindən endirildi. Tariximizin sovet mərhələsində isə o, Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı ilə əvəz edildi.



*Ulu öndər Heydər Əliyevin* müstəqillik uğrunda qurtuluş savaşının Naxçıvan dövrü çağdaş dövlətçilik tariximizin ən şanlı səhifələrindən biridir. 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin sədri, böyük dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edildi və rəsmi olaraq Azərbaycan ərazisində ilk dəfə Naxçıvanda dalğalandı. *Ulu öndər* Heydər Əliyevin bu qərarı xalqımızı müstəqilliyə aparan ən mühüm nailiyyət kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti və tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Qanunu"nu qəbul etdi. Bu Konstitusiya Qanunu ilə üçrəngli bayrağımız Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq edildi və bu müqəddəs istiqlal rəmzimiz bütün Azərbaycan üzərində dalğalanmağa başladı.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdi. 1992-ci ildə Azərbaycan Birləşmiş Millətlər Təşkilatının üzvü oldu, üçrəngli bayrağımız isə təşkilatın Nyu-Yorkdakı iqamətgahının qarşısında dünyanın 180-dən çox dövlətinin bayraqları ilə bir sırada dalğalanmağa başladı.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsi idi ki, onun ölkəyə rəhbərlik etdiyi dövrdə Azərbaycanın dövlət rəmzləri ilə bağlı qanunvericilik bazası formalaşdı. Ulu öndər Heydər Əliyevin "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" 1998-ci il 13 mart tarixli sərəncamı bu sahədə normativ aktların tələblərinə əməl edilməsini, dövlət atributlarının tətbiqi ilə bağlı tədbirlərin məqsədyönlü şəkildə qurulmasını, tənzimlənməsini və gücləndirilməsini nəzərdə tuturdu.

Prezident İlham Əliyevin bu sahədəki xidmətləri Azərbaycan cəmiyyətində dövlət rəmzlərinə olan hörmət və ehtiramın nümunəsi kimi qəbul edilir. 2004-cü ildə Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında Qanunun təsdiq edilməsi, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurasının yaradılması, 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) haqqında fərmanın imzalanması, nəhayət 2009-cu ildə noyabrın 9-nun Azərbaycanda Dövlət Bayrağı Günü kimi təsis edilməsi Azərbaycan Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərdən, bəslədiyi müqəddəs münasibətdən qaynaqlanır.

Dövlət başçısının yürütdüyü siyasətin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram bu gün Azərbaycan dövlətinin təməl prinsipləri sırasında xüsusi yeri və mövqeyi ilə seçilir. Müstəqillik, azərbaycançılıq və vətənpərvərlik məfhumları Prezident İlham Əliyevin fəaliyyətində həmişə hiss olunur. Azərbaycan dövlətinin başçısı tarixi keçmişi hər zaman uca tutur, həmişə müasirliyin tərəfdarı kimi çıxış edir, mənəvi dəyərlərə hörmətlə yanaşır.

Biz soykökümüzlə fəxr edirik - Biz müasir dünyada yaşamağa layiqik - Biz imanımızda möhkəmik. Türk milli mədəniyyətinin, müasir Avropa demokratiyasının və islam sivilizasiyasının simvolu olan bayrağımız müasir dövlətimizin ideoloji modelinin məna və funksiyasını tamamilə ifadə edir və müstəqil Azərbaycan üçrəngli bayrağımız altında müstəqillik yolları ilə inamla irəliləyir.





# DÖVLƏT BAYRAĞI MEYDANI

Müstəqillik ən böyük nemətdir, hər bir xalqın özünütəsdiq imkanıdır. Bu gün Azərbaycanın dünya birliyində müstəqil siyasət aparması, öz milli maraqlarını ən yüksək səviyyədə təmin etməsi qarşıya qoyulan məqsədlərə nail olduğunu göstərir. Müstəqilliyin verdiyi imkanlardan bəhrələnən Azərbaycan hazırda öz iqtisadi inkişafına görə dünyanın lider dövlətinə çevrilib. Ölkədə aparılan geniş miqyaslı siyasi, iqtisadi və sosial islahatlar, abadlıq və quruculuq işləri malik olduğumuz potensialın üzə çıxarılması baxımından böyük əhəmiyyət daşıyır. Sürətlə inkişaf edən Azərbaycan bu gün çox dəyişib, Bakı öz gözəlliyi ilə seçilən dünyanın ən gözəl şəhərləri sırasına daxil olub, nəhəng infrastruktur layihələrinin icrası bölgələrlə yanaşı, paytaxtın da simasına mühüm elementlərin əlavə edilməsi ilə nəticələnib. Paytaxtın simvollarından birinə çevrilən Dövlət Bayrağı Meydanını isə digər layihələrdən fərqləndirən əsas cəhət onun məna və mahiyyətidir. Bu onu göstərir ki, yeniləşən və müasirləşən Azərbaycanın sürətli iqtisadi inkişafını şərtləndirən mühüm layihələr silsiləsi davamlı xarakter alıb. Bu həm də dünyada öz inkişafı, mədəni və milli dəyərlərə bağlılığı ilə öyünən, öz təcrübəsini hamı ilə bölüşməyə hazır olan Azərbaycanın regiondakı yerini və çəkisini, həm də özəlliyini nümayiş etdirir. Bir reallıq da özünü biruzə verir ki, regionda iqtisadi tərəqqisinə görə, dünyanı heyrətləndirən yeni güc mərkəzi artıq formalaşıb - bu, Azərbaycandır.

Bu gün Azərbaycanda dövlət atributlarına hörmət və ehtiram ən yüksək səviyyədədir. Bu da təbii ki, Prezident İlham Əliyevin dövlət rəmzlərinə olan münasibətindən qaynaqlanır. Dövlət başçısı istəyir ki, Azərbaycanın müstəqilliyinin müqəddəs simvolu olan dövlət bayrağına hörmət və ehtiram, üçrəngli bayrağa olan məhəbbət və vətəndaş sevgisi hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının həyat idealına, milli fəxarət məramına, Vətən qayğısına, millət duyğusuna çevrilsin. Ulu öndər Heydər Əliyevin xalqımıza yadigar qoyduğu azərbaycançılıq ideologiyasının mühüm tərkib hissəsi olan bu proses indi Azərbaycanda dövlət atributlarına, o cümlədən milli bayrağa sevginin, Vətənə, xalqa və dövlətə olan məhəbbətin güclənməsindən keçir. Bunu nəzərə alan Prezident İlham Əliyev müstəqilliyimizin simvolu olan dövlət atributlarının əhəmiyyətini artırmaq, onların məna və mahiyyətini gənc nəslə aşılamaq məqsədilə bir çox layihələrin ideya müəllifi kimi çıxış edir. Bu gün Azərbaycanın dörd bir yanında dövlət bayrağımız yüksək nöqtələrdə dalğalanır, sərhəd regionlarında bu amil daha qabarıq hiss olunur. Orta məktəb dərsliklərində dövlət atributlarına geniş yer verilir, məktəblilərin milli ruhda böyüməsinə xüsusi diqqət yetirilir.



Bakıda Dövlət Bayrağı Meydanının yaradılması ilə bağlı Prezident İlham Əliyevin irəli sürdüyü ideya da ali məqsədlərdən, müqəddəs amallardan qaynaqlandı. Keçmişimizə, milli dəyərlərimizə hörmət, tarixi-mədəni irsə diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin bu ideyasının təməlində hər şeydən öncə milli bayrağa, onun fəlsəfəsinə olan vurğunluq, sonsuz sevgi və məhəbbət dayanır. Bu, Vətənə, Azərbaycanın müstəqilliyinin rəmzi olan dövlət atributlarına olan sevginin ən ali səviyyədə təzahürü və gerçəkləşməsidir. Bu amil Dövlət Bayrağı Meydanının yaradılmasının məqsədlərində də özünü aydın göstərir:

- **Azərbaycan vətəndaşlarının milli həmrəyliyini, vahid azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşmələrini təmin etmək;**
- **Dövlət bayrağının təbliğini daim diqqət mərkəzində saxlamaq;**
- **Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində dövlət atributlarına, xüsusən də dövlət bayrağına diqqəti artırmaq;**
- **Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək.**

Əsas diqqət ilk növbədə bu nəhəng layihənin reallaşması üçün paytaxtda ən münasib yerin seçilməsinə yönəldildi. Prezident İlham Əliyevə bir çox layihələr təqdim edildi. Dövlət başçısı bir neçə mühüm məqamın üzərində xüsusi dayandı: Dövlət bayrağı paytaxtın mərkəzində olmalı; şəhərin bütün yerlərindən, hətta Xəzər dənizindən aydın görünməli idi. Gərgin iş prosesi nəticəsində dövlət başçısı tərəfindən ən uğurlu layihə seçildi. Prezident İlham Əliyev 2007-ci il noyabrın 13-də bayraq meydanının yaradılacağı yerə gəldi, ərazi ilə tanış oldu və Dövlət Bayrağı Meydanının tikintisinə qərar verdi.





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Bayrağı Meydanı üçün ayrılmış ərazi ilə tanışlığı. 13 noyabr 2007-ci il**

Prezident İlham Əliyevin 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması haqqında imzaladığı Sərəncam bayrağın dövlət rəmzləri sırasında xüsusi yerini və rolunu müəyyən etdi. Azərbaycan Prezidentinin həyata keçirmək istədiyi bu ideyanı ən çox dəstəkləyən də elə Azərbaycan cəmiyyətinin özü oldu. İctimaiyyətin bu layihəyə göstərdiyi maraq, verdiyi dəstək milli bayrağımıza Azərbaycan vətəndaşlarının müqəddəs münasibətindən qaynaqlandı.

2007-ci il dekabrın 30-da - Dünya Azərbaycanlılarının Həmrəylik günü ərəfəsində paytaxtın Bayıl qəsəbəsində Dövlət Bayrağı Meydanının təməli qoyuldu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təntənəli mərasimdə şəxsən iştirakı dövlət başçısının bu layihənin icrasına verdiyi önəmi və diqqəti göstərdi. Milli məsələlərə münasibətdə hər zaman prinsipial mövqeyi ilə seçilən dövlət başçısı bu mərasimdə iştirakı ilə hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurdu, Prezident kimi xalqımızın azadlıq ideallarının həyata keçirilməsində hər zaman öndə olduğunu bir daha nümayiş etdirdi, ortaya güclü vətəndaş mövqeyi qoydu. Dövlət və hökumət nümayəndələrinin də iştirak etdiyi mərasimdə Prezident İlham Əliyev layihənin texniki-iqtisadi göstəriciləri ilə tanış oldu, meydanın görüntüləri əks olunan şəkillərə baxdı, tikinti işlərinin yüksək keyfiyyətlə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Bayrağı Meydanının layihəsi ilə tanışlığı.
30 dekabr 2007-ci il







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev
Dövlət Bayrağı Meydanının təməlqoyma mərasimində.
30 dekabr 2007-ci il





## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Bayrağı Meydanının təməlqoyma mərasimində çıxışı

*Azərbaycanda Dövlət Bayrağı Meydanı yaradılır. Mən bu barədə keçən ay Sərəncam imzaladım. Əlbəttə ki, biz o vaxta qədər müxtəlif yerlərə baxmışdıq və məhz bu yeri seçdik. Çox gözəl yerdir, bir az təpədə yerləşir və buradan şəhərə çox gözəl mənzərə açılır. Eyni zamanda, şəhərin əksər yerlərindən bu yer görünür... Azərbaycanın bu dövlət rəmzi Bakı şəhərində dalğalanacaqdır. Bu, bizim müstəqilliyimizdir, bizim azadlığımızdır. Bakıda, başqa şəhər və rayonlarda bizim dövlət bayraqları müxtəlif yerlərdə ucaldılır... Ancaq bu bayraq, əlbəttə, bütün başqa bayraqlardan son dərəcə fərqlənir. Həm ona görə ki, bu, çox böyük bayraqdır. Bunun ölçüləri 70x35 metrdir. Çəkisi də çox ağırdır, 350 kiloqram ancaq bayrağın çəkisi olacaqdır. Həm də ona görə fərqlənir ki, bu bayraq Dövlət Bayrağı Meydanında ucaldılacaq. Əlbəttə, bu ərazi abadlaşdırılacaq. Artıq burada "Azərenerji" böyük işlər görübdür, texnika gətirib. Çox mürəkkəb bir iş olacaq. Belə böyük bayrağı texniki baxımdan qurmaq çox böyük peşəkarlıq tələb edir. Bu, bizdə var, texnika var, peşəkarlıq var. Əminəm ki, bizim bayrağımız, milli rəmzimiz bizi Azərbaycanın xoşbəxt gələcəyinə aparacaqdır. Bayrağımız həmişə uca olacaq...*

*Mən Azərbaycanda Dövlət Bayrağı Meydanının yaradılması haqqında Sərəncamı bu il noyabrın 17-də imzaladım. Bu da təsadüfi deyil. Çünki məhz 1990-cı il noyabrın 17-də ilk dəfə olaraq Azərbaycanda, Naxçıvanda, Naxçıvan Ali Məclisinin ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanın dövlət bayrağı kimi qaldırılmışdı. Bildiyiniz kimi, bizim bayrağımız 1918-ci ildə ucaldılıb. Azərbaycan Xalq Cümhuriyyəti, müstəqil Azərbaycan dövləti yarananda bu bayraq Azərbaycanın dövlət bayrağı elan edilmişdi. Ancaq 1920-ci ildə Xalq Cümhuriyyəti süqut edəndə, əlbəttə, bayraq da dəyişdirildi. 1990-cı ildə, - onda hələ Azərbaycan müstəqil deyildi, - ulu öndərimiz bu bayrağı Azərbaycanın və Naxçıvanın rəsmi bayrağı kimi elan etdi. Bir neçə aydan sonra isə, 1991-ci ilin fevral ayında bu bayraq Azərbaycanın Dövlət bayrağı kimi elan edildi. Yəni bu, tarixdir. Bu, bir daha onu göstərir ki, ulu öndərimiz Azərbaycanın müstəqilliyi üçün çox böyük işlər görmüşdür. Hələ o zaman ki, Azərbaycan müstəqil dövlət deyildi, bu bayraq Azərbaycanın, bizim müstəqilliyimizin simvolu oldu. Azərbaycan xalqı əsrlər boyu müstəqillikdən məhrum olmuşdur. Bizim öz dövlətimiz yox idi və azərbaycanlılar başqa ölkələrin tərkibində yaşayırdılar. Müstəqillik ən böyük sərvətdir, ən böyük xoşbəxtlikdir. Biz öz taleyimizi özümüz həll edirik. Bizim müstəqil Azərbaycan dövlətimiz var və bu dövlət günü-gündən möhkəmlənir. Hər bir dövlətin rəsmi simvolları var. Ancaq bu simvollarla yanaşı, müstəqil siyasət aparmaq heç də hər bir dövlətin işi deyil. Bizi bir sıra ölkələrdən, o cümlədən bizim bölgədə yerləşən bəzi ölkələrdən fərqləndirən odur ki, biz müstəqil siyasət aparırıq. Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətdir və bu müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük xoşbəxtlikdir. Bizim müstəqilliyimizi əks etdirən, onun rəsmi rəmzi olan bayrağımız dalğalanmalıdır. Bu gözəl bayraq Bakının bütün yerlərindən görünəcək.*



# DÖVLƏT BAYRAĞI MEYDANININ TİKİNTİSİ

Azərbaycan tarixində ilk dəfə reallaşan bu layihə parametrlərinə və görülən işin miqyasına görə unikal mühəndis-texniki qurğudur. Dövlət Bayrağı Meydanının inşasının həm də ölkə əhəmiyyətli məsələ olması bu layihənin kəsb etdiyi əhəmiyyəti daha da artırıb. Bu, həm də Dövlət Bayrağı Meydanında görülən işlərin son dərəcə dəqiq və məsuliyyətlə həyata keçirilməsini şərtləndirib. Arxitektor və memarlarımızın cəlb olunduğu böyük heyət dünyada ilk dəfə məhz Azərbaycanda belə bir layihənin həyata keçirilməsi üçün yorulmadan çalışırdı.

Dövlət Bayrağı Meydanının tikintisinə 2008-ci ilin əvvəlindən start verildi. Ərazidə aparılan inşaat işləri zamanı 1,5 milyon $m^3$ torpaq işi görüldü. Bayraq dirəyinin pyedestalının altında mürəkkəb mühəndis-texniki konstruksiya quraşdırıldı. Pyedestalın bünövrəsinin qoyulmasında uzunluğu 12 metr olan 152 dirəkdən və dərinliyi 30 metr olan, dəniz səviyyəsindən 7 metr aşağıda yerləşən 20 dirəkdən istifadə olunmuşdur. Meydanın tikintisində ölkənin əksər rayonlarından gətirilən 28 milyon ədəd çay daşından istifadə edildi, beləliklə də bayrağın ətrafında simvolik olaraq qala divarları təəssüratı yaradıldı. Dövlət bayrağının ucaldığı meydan 3 hissədən ibarətdir. Dövlət Bayrağı Meydanı kompleksinin ümumi ərazisi 60 hektardır. Dövlət bayrağı ucaldığı meydanın üst yarusunun sahəsi isə 31200 $m^2$.







Dövlət Bayrağı Meydanının tikintisi üçün ayrılmış ərazinin əvvəlki vəziyyəti



Dövlət Bayrağı Meydanının tikintisi









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Bayrağı Meydanında inşaat işlərinin gedişi ilə tanışlığı.**
**27 oktyabr 2008-ci il**

Prezident İlham Əliyev Dövlət Bayrağı Meydanında aparılan tikinti-quraşdırma işlərinin gedişini hər zaman diqqət mərkəzində saxladı. Layihənin əhəmiyyətini nəzərə alan dövlət başçısı 2008-2010-cu illərdə 6 dəfə Dövlət Bayrağı Meydanında oldu, inşaat işlərinin yüksək keyfiyyətlə aparılmasına dair tapşırıq və tövsiyələrini verdi. Prezident İlham Əliyevin layihənin yüksək keyfiyyətlə başa çatdırılmasına verdiyi əhəmiyyətin nəticəsi idi ki, dövlət başçısı 2009-cu il oktyabrın 26-da Dövlət Bayrağı Meydanında tikinti-quraşdırma və abadlaşdırma işlərinin sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 10 milyon manat vəsaitin ayrılması haqqında Sərəncam imzaladı.

Prezident İlham Əliyevin 2010-cu il 3 avqust tarixli Sərəncamına əsasən Dövlət Bayrağı Meydanında başa çatdırılan tikinti-quraşdırma və abadlaşdırma işlərinin tamamlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 10 milyon manat məbləğində vəsait ayrılmışdır.







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Bayrağı Meydanında inşaat işlərinin gedişi ilə tanışlığı. 18 may 2009-cu il**





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
Dövlət Bayrağı Meydanında inşaat işlərinin gedişi ilə tanışlığı.
13 yanvar 2010-cu il





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
Dövlət Bayrağı Meydanında inşaat işlərinin gedişi ilə tanışlığı.
30 mart 2010-cu il





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Dövlət Bayrağı Meydanında inşaat və abadlıq işlərinin gedişi ilə tanışlığı.
26 iyul 2010-cu il**







Tikintinin ən mürəkkəb bölməsi dövlət bayrağının dirəyi ilə bağlı oldu. Bayraq dirəyinin layihəsini Amerika Birləşmiş Ştatlarının bu sahədə ixtisaslaşmış "Trident Support" şirkəti hazırladı, podratçı qismində isə yerli "Azenko" şirkəti çıxış etdi. Bakının küləkli hava şəraiti bayraq dirəyinin hazırlanmasında və quraşdırılmasında daha dəqiq hesablamaların aparılmasını tələb edirdi. Amma layihələndirmə işlərinin mükəmməlliyi, Azərbaycan mütəxəssislərinin yüksək professionallığı və gərgin əməyi bu məsələnin də yüksək keyfiyyətlə həllinə imkan verdi.

Layihənin digər mühüm hissələrindən biri - dirəyin quraşdırılmasında istifadə olunacaq kranın yığılması da mürəkkəb prosesdən keçdi. Azərbaycan hökumətinin sifarişi ilə Almaniyada hazırlanan və parametrlərinə görə regionda yeganə olan 188 metr hündürlükdə işləyən, yükqaldırma qabiliyyəti isə 600 ton olan kran bayraq dirəyinin tam keyfiyyətlə quraşdırılmasında müstəsna rol oynadı. Nəhayət, hündürlüyü 5 metr olan pyedestalın üzərində çəkisi 300 ton olan dayağın ucaldılması prosesi uğurla başa çatdı.

**Dövlət Bayrağı Meydanının tikintisində istifadə olunmuş regionda ən hündür kran**





15 seksiyadan ibarət olan bayraq dirəyinin hündürlüyü 162 metrdir. Bayrağın dəniz səviyyəsindən hündürlüyü isə 192 metrdir. Bayraq dirəyinin birinci seksiyasının quraşdırılması 2008-ci il oktyabrın 3-də başa çatdı. Seksiyanın bünövrədəki ölçüsünün diametri 3,4 metrə çatır. 2009-cu il avqustun 22-də isə sonuncu seksiyanın quraşdırılması uğurla yekunlaşdı. Bayraq dirəyinin hündürlüyü artdıqca dirəyin diametri 1 metrədək azalır. Küləyin sürəti saniyədə 66 metr (saatda 200 kilometrdən çox) olanda belə dirəyin təhlükəsizliyi tam təmin olunub.

Layihənin ən maraqlı bölmələrindən biri də dövlət bayrağının parametrləri ilə bağlıdır. Eni 35, uzunluğu 70 metr olan bayrağın çəkisi 350 kiloqramdır və 2450 $m^2$ sahəni əhatə edir. Yaş halda çəkisi 2 dəfə artır. Xüsusi yumşaq materialdan hazırlanan bayraq təbii təsirlərə olduqca davamlıdır.

**Bayraq dirəyinin quraşdırılması**
















DÖVLƏT BAYRAĞI
MEYDANI

Qeyd edək ki, Amerika Birləşmiş Ştatlarının "Trident Support" şirkəti bir sıra ölkələrdə anoloji layihələr həyata keçirib. İndiyə qədər şirkət Türkmənistanın paytaxtı Aşqabadda (133 metr), İordaniyanın Aqabe (132 metr) və Əmman (126 metr) şəhərlərində, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi (123 metr) şəhərində hündür bayraq dirəklərinin layihələndirilməsini yerinə yetirib. Lakin Azərbaycanı bu ölkələrdən fərqləndirən əsas cəhət 162 metr hündürlükdə dalğalanan dünyanın ən hündür bayrağının Bakıda olmasıdır. Azərbaycan mütəxəssislərinin böyük zəhməti, gərgin iş prosesi, yüksək professionallığı, güclü iradəsi və cəsarəti hesabına başa gələn bu layihənin əhəmiyyətini Ginnes Rekordlar Təşkilatı da öz qərarı ilə təsdiqləmişdir. 2010-cu il mayın 29-da Ginnes Rekordlar Təşkilatı dünyanın ən hündür bayraq dirəyinin Azərbaycan paytaxtında olduğunu elan etmişdir. Bu mühüm və qürurverici hadisə üçrəngli bayrağımızın dünya birliyində tutduğu yerə və onun malik olduğu əhəmiyyətə verilən mənəvi dəyərin bariz nümunəsi idi.



GUINNESS WORLD RECORDS

# CERTIFICATE

**The tallest unsupported flagpole measures 162 m (531 ft 5 in), and was erected in the country of Azerbaijan. It was measured in Baku, Azerbaijan, on 29 May 2010**

APPROVED GUINNESS WORLD RECORDS

**GUINNESS WORLD RECORDS LTD**

Dövlət Bayrağı Meydanının əhəmiyyətini artıran digər mühüm amil bu monumental kompleksin dövlət rəmzlərini özündə birləşdirən məkana çevrilməsidir. Hündürlüyü 5 metr olan pyedestal Azərbaycan Respublikasının bayrağında əks olunan səkkizguşəli ulduzu simvolizə edir. Bayrağın bünövrəsinin əhatəsində isə dövlət rəmzləri - gerb, himnin sözləri və Azərbaycanın xəritəsi yerləşdirilib. Azərbaycanda ilk dəfə sahəsi təxminən 100 $m^2$, 9x11 metr nisbətində, çəkisi 16 ton olan, üzəri qızıl suyuna salınmış nəhəng bürünc gerb hazırlanıb. Pyedestalı əhatələyən səkkiz guşənin altında isə Dövlət Bayrağı Muzeyi yaradılır.





**Dövlət Bayrağı Meydanında Azərbaycan Respublikasının Dövlət Gerbinin quraşdırılması**




Dövlət Bayrağı Meydanında Azərbaycan Respublikasının
Dövlət Himninin mətninin quraşdırılması





Dövlət Bayrağı Meydanında Azərbaycan Respublikasının
xəritəsinin quraşdırılması

Dünyada ilk dəfə məhz Bakıda bu miqyasda Dövlət Bayrağı Meydanı kompleksi yaradılmışdır. Öz nəhəngliyinə, əzəmətinə, müasir həllinə, texniki-mühəndisi vəzifələrin uğurla yerinə yetirilməsinə görə Dövlət Bayrağı Meydanının dünyada analoqu yoxdur. Artıq doğma paytaxtımızın rəmzinə çevrilən Dövlət Bayrağı Meydanı dünya azərbaycanlılarının müqəddəslik simvoluna, ən çox ehtiram göstərilən və ziyarət olunan məkana çevrilib. Bu meydan paytaxtımızın qonağı olan xarici ölkə vətəndaşları üçün də son dərəcə maraqlıdır. Bütün azərbaycanlılar üçün milli qürur rəmzinə çevrilən Dövlət Bayrağı Meydanı dövlət bayramlarının, hərbi andiçmə mərasimlərinin keçirildiyi, ailə quran gənclərin qeyd etdiyi nikah günü məkanı kimi də diqqət çəkir.





# DÖVLƏT BAYRAĞI MUZEYİ

Xalqımızın vətənpərvərlik ruhunun formalaşmasında və inkişafında müstəsna əhəmiyyətə malik olan Dövlət Bayrağı Meydanının əsas hissələrindən biri də Bayraq Muzeyidir. Dünya azərbaycanlılarının tarixini, mədəni dəyərlərini və milli rəmzlərini əks etdirən dövlət atributlarının bir arada ictimaiyyətə təqdim olunması, gənc nəslin vətənpərvərlik ruhunun daha da yüksəldilməsi, onların tarixi keçmişimizlə tanışlığının təmin olunması Dövlət Bayrağı Muzeyinin yaradılmasının əsas məqsədləri sırasına daxildir.

**Dövlət Bayrağı Muzeyinin yaradılması ideyası Prezident İlham Əliyevə məxsusdur.**

Prezident İlham Əliyev bu ideyanı reallaşdırmaqla dövlət atributlarının tariximizdəki əhəmiyyətini irəli çəkib. Dövlət Bayrağı Muzeyi müstəqilliyimizin və dövlətçiliyimizin rəmzlərini milli-vətənpərvərlik ideyaları ilə zənginləşdirmək, Azərbaycan Respublikasının dövlət ideologiyasının əsas postulatlarını özündə birləşdirməklə onların təbliğini daha gücləndirmək baxımından böyük əhəmiyyət kəsb edir.

2010-cu il iyulun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanında tikinti və abadlıq işləri ilə tanışlığı zamanı yeni yaradılan Dövlət Bayrağı Muzeyində olmuş, öz tövsiyə və tapşırıqlarını vermişlər.





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Dövlət Bayrağı Meydanında qurulmuş Dövlət Bayrağı Muzeyi ilə tanışlığı. 26 iyul 2010-cu il**

Millətimizin müstəqillik simvolu, şərəf nişanı olan **AZƏRBAYCAN BAYRAĞI** dövlətimizin mənəvi-siyasi dəyəridir. Üçrəngli bayrağımız xalqımızın azadlıq və istiqlal ideallarının, milli varlığının, qədim və çağdaş mədəniyyətə sahib olmasının təcəssümüdür. O, həm də dünya azərbaycanlılarının mənəvi-siyasi və mədəni birliyinin, bölünməzliyinin simvoludur.

**Bayrağa məhəbbət dövlətə məhəbbətdir.**

**Bayrağı sevmək dövlətin təəssübünü çəkmək deməkdir.**

**Yaşasın Azərbaycan Respublikasının ay-ulduzlu, üçrəngli bayrağı!!!**



